# Vyetnam Sosial Elmlər Akademiyasının alimləri AMEA-da

**Noyabrın 2-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli AMEA-nın 80 illik yubiley tədbiri çərçivəsində ölkəmizdə səfərdə olan Vyetnam Sosial Elmlər Akademiyasının (VSEA) vitse-prezidenti professor Ta Minh Tuanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə çıxış edən akademik İsa Həbibbəyli qonaqları ölkəmizdə görməkdən məmnunluğunu dilə gətirib və AMEA-nın 80 illik yubiley tədbiri çərçivəsində dəvəti qəbul etmələri münasibətilə minnətdarlığını bildirib.

Akademik İsa Həbibbəyli Azərbaycanla Vyetnam arasında hələ ötən əsrin ortalarından başlayan sıx dostluq, tərəfdaşlıq münasibətlərinin son illərdə daha da genişləndiyini deyib. Cari ildə Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfər etdiyini xatırladan akademik İsa Həbibbəyli bu səfərin ölkələrimizin elmi qurumları arasında da əlaqələrin genişlənməsinə öz töhfəsini verdiyini söyləyib.

AMEA-nın hazırda Vyetnamın Elm və Texnologiya Akademiyası və Hanoy Universiteti ilə əməkdaşlıq münasibətləri olduğunu deyən akademik İsa Həbibbəyli, həmçinin Akademiyanın Ədəbiyyat, Şərqşünaslıq və Tarix institutlarında Vyetnamla bağlı elmi tədqiqatların aparıldığını diqqətə çatdırıb.

AMEA rəhbəri Vyetnam Sosial Elmlər Akademiyası ilə də əməkdaşlıq üçün geniş imkanların olduğunu, gələcəkdə birgə layihələrin həyata keçirilməsi məqsədilə anlaşma memorandumunun hazırlanmasının vacibliyini vurğulayıb.

Vyetnam Sosial Elmlər Akademiyasının (VSEA) vitse-prezidenti professor Ta Minh Tuan öz növbəsində çıxışında Azərbaycana, AMEA-nın 80 illik yubiley tədbirinə dəvətə görə minnətdarlığını bildirib. Ölkələrimiz arasında əlaqələrdən danışan professor Ta Minh Tuan Milli Elmlər Akademiyası ilə əməkdaşlığa açıq olduqlarını, birgə konfransların, layihələrin təşkili, nəşrlərin çapı və s. məqsədilə anlaşma memorandumunun hazırlanmasında maraqlı olduqlarını ifadə edib.

Daha sonra bir sıra istiqamətlər üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub.

Sonda qonaqlara hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, görüşdə VSEA-nın Avropa və Amerika Araşdırmaları İnstitutunun Rusiya və MDB Tədqiqatları Mərkəzinin direktoru PhD. Vu Thuy Trang, VSEA-nın Beynəlxalq əməkdaşlıq departamentinin müdir müavini Tran Dinh Hung, ETN İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasov, AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva və İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürov da iştirak ediblər.